*Prezidentin izi ilə*

# Ağdam: tarixin, quruculuğun Zəfər salnaməsi*

*Ağdama budəfəki səfərimiz səbəbsiz deyildi, 30 illik işğal dövründə düşmənin xarabalığa çevirdiyi, "Qafqazın Xirosiması" adlandırılan, bu gün isə sıfırdan qurulan, addım-addım böyüyən, sürətlə dirçələn, dövlət başçısının birbaşa nəzarəti ilə modern şəhərsalma üslubunda tikilən, keçmiş ənənələri gələcəyə aparan, baxdıqca, həqiqətən insanın köksünü qabardan, sevindirən, quruculuğu çox möhtəşəm olan yurd yerinə növbəti mediatur təşkil olunmuşdu. Sentyabrın 20-si adi günlərdən deyildi. Ötən il Xankəndi və ətraf ərazilərdə keçirilən antiterror tədbirləri nəticəsində qəhrəman ordu bölmələrimizin düşmənə ağır zərbə vuraraq torpaqlarımızdan separatizmin kökünü kəsdiyi günün ildönümünün, ən qürurlusu isə Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizin bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyi günün sevincini elə Qarabağ torpaqlarında yaşadıq. Sanki günəş də xalqımızın sevincinə şərik olaraq hər tərəfi öz şəfəqlərinə bürümüşdü. Parlaq şəfəqlərə bürünən üçrəngli bayrağımız bu torpaqlarda qürurla dalğalanır. Düşünürsən ki, tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilmədi. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir. Taleyin qismətinə baxın ki, keçmiş məcburi köçkün, otuz ilə yaxın Ağdam həsrəti ilə yaşamış bu sətirlərin müəllifi ilk suverenlik gününü öz ata-baba yurdunda qeyd etdi. Dünyada bundan böyük xoşbəxtlik ola bilməz.*



## Ənənələrin bərpa edildiyi yurd

Ulu Öndər Heydər Əliyev bir neçə dəfə - 1973, 1974, 1981 və 1982-ci illərdə Ağdam rayonuna səfər etmişdi, xalqımızın haqlı tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdandan sonra, 1998-ci ilin oktyabr ayında - prezident seçkiləri ərəfəsində seçicilərlə Ağdam rayonunun Quzanlı qəsəbəsində də ağdamlılarla görüşmüşdü. Məhz ulu öndərin diqqət və qayğısı sayəsində keçmiş sovet dönəmində Ağdam rayonu həm də sənaye mərkəzi kimi inkişaf edərək ittifaq miqyasında tanınırdı. Belə ki, şəhərdə 17 sənaye, 12 nəqliyyat müəssisəsi var idi. Burada ət kombinatı, xalça fabriki, rayonlararası təchizat idarəsi, dəzgahqayırma, metiz-furnitur zavodu, rayonlararası traktor təmiri zavodu, taxıl məhsulları kombinatı, yük və nəqliyyat xidməti avtobazaları, 4 nəqliyyata texniki xidmət idarəsi fəaliyyət göstərirdi. Taxıl məhsulları kombinatı 80 min tonluq elevator, 245 tonluq dəyirman, 245 tonluq çörək zavodu, 640 tonluq yem zavodundan ibarət idi. Ağdamda istehsal olunan məhsullar nəinki Azərbaycanın, eləcə də keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə göndərilirdi. Burada, həmçinin yağ-pendir, konserv, şampan, şərab, barama zavodları, elektrik lampaları istehsalı fabriki də var idi. Rayonun digər ərazilərində isə 2 tikinti materialları kombinatı, 11 şərab zavodu fəaliyyət göstərirdi.

Ata vəsiyyətini şərəflə yerinə yetirən, xilaskar, qalib Sərkərdə kimi adını tarixə yazan Prezident İlham Əliyevin keçmiş ənənələri nəzərə alması nəticəsində Ağdam Sənaye Parkının təməli məhz işğaldan əvvəlki sənaye zonasında qoyulub. Ağdamda sənaye parkının yaradılması əhalinin məşğulluğunun təmin olunmasına, qeyri-neft sektorunun inkişafına, rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın formalaşdırılmasına səbəb olacaq. Burada nəqliyyat dəhlizləri də yaradılır. Artıq Bərdə-Ağdam dəmir yolu və avtomobil yolunun tikintisi başa çatdırılıb. Sentyabrın 19-da dövlətimizin başçısının Suverenlik Gününün ilk qeyd olunduğu anlarda Ağdama səfəri açılış və təməlqoyma mərasimləri ilə zəngin oldu. Dövlətimizin başçısının özünün də qeyd etdiyi kimi: "Mənim bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bizim bəyan etdiyimiz bütün hədəflər - ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması bölgələrdə təmin edilsin. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda ölkəmizi gücləndirir". Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etmək ən ümdə məsələdir. Özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik Qarabağ iqtisadi rayonuna daxil olan Ağdamın bərpası və sürətli inkişafı qürurvericidir, bu, hər şeydən əvvəl, dövlətimizin gücünü göstərir.

Doğma yurd yerlərinə qayıdacaq insanlara iş yerlərinin yaradılması üçün 2021-ci il may ayının 28-də Prezident tərəfindən təməli qoyulan Ağdam Sənaye Parkında quruculuq işləri sürətlə aparılır. Genişmiqyaslı quruculuq ilə tanışlığa da elə Ağdam Sənaye Parkından başladıq. Təməli qoyulduğu gündən üç il keçməsinə baxmayaraq, burada çox böyük və nəhəng işlər həyata keçirilib, dövlət başçımızın açılışlarını etdiyi zavodlarda artıq istehsala başlanılıb.



**İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat katibi Elçin Kazımov** məlumat verdi ki, bu müasir istehsal parkında ilkin mərhələdə 6 sənaye müəssisəsi - "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyaların istehsalı, "BAFCO İnvest" MMC-nin müxtəlif təyinatlı ayaqqabıların, "Rail Trans Service" MMC-nin avtomatlaşdırma və telemexanika sistemlərinin, "Mister Decor" MMC-nin divar kağızları, "Metkons" MMC-nin havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları və "Prof-Dam" MMC-nin dam örtükləri istehsalını həyata keçirən zavodlar fəaliyyətə başlayıb. Ağdam Sənaye Parkı son illərdə yaradılmasına baxmayaraq, rezident sayına görə Sumqayıt Kimya-Sənaye Parkından sonra ölkədə ikinci ən böyük sənaye parkıdır. Qeyd olunan faktlar sahibkarların işğaldan azad edilmiş Ağdamda irimiqyaslı layihələrin icrasına maraq göstərmələrini, həmçinin burada onlar üçün əlverişli investisiya mühitinin mövcudluğunu göstərir. Bu isə Qarabağın və Şərqi Zəngəzurun sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, həmçinin Böyük Qayıdış çərçivəsində öz doğma yurduna dönən əhalinin istehsal sahəsində məşğulluğunun artırılması baxımından ciddi əhəmiyyətə malikdir.

Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Bölgənin coğrafi mövqeyi, insan resursları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcək. Ağdam Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların təşkili müəyyənləşdirilib. Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

Sonra ən müasir standartlar səviyyəsində qurulmuş istehsal müəssisələrinə baş çəkirik. Burada çox unikal və rahat iş yerləri yaradılıb, dünyanın ən qabaqcıl texnologiyalarına malik istehsal dəzgahları quraşdırılıb, işçilərə sənaye zonasında yaradılan əlverişli şərait diqqətimizi cəlb edir, onlar xüsusi geyimlərlə təchiz olunublar, yaxşı işlədikləri kimi, yaxşı da əməkhaqqı alırlar. İşçilərə servis xidməti də göstərilir. İlk tanış olduğumuz "BAFCO İnvest" MMC 2023-cü ilin əvvəlində Ağdam Sənaye Parkında iştirakçı statusunu alıb. Sənaye Parkının 2,5 hektar ərazisində yerləşən fabrik xüsusi ucları və altlığı olan təbii dəridən iş və xüsusi təyinatlı ayaqqabılar, eləcə də müxtəlif sahələrdə istifadə üçün poliuretan çəkmələrin istehsalı ilə məşğuldur.




**Fabrikin istehsal üzrə direktoru Osman Yaylalı** istehsal edilən məhsullar haqqında məlumat verərək dedi:

- İstehsal edilən ayaqqabılar payız-qış, yay-yaz fəsillərinə və təhlükəsizlik xüsusiyyətlərinə görə müxtəlif modellərə bölünür. Ayaqqabıların yuxarı hissəsi təbii dəridən, altlığı isə çox əyilmə, sürtünmə və aşınmaya davamlı poliuretan materialdan hazırlanır. Üst və alt hissələrin birləşdirilməsi inyeksiya üsulu ilə həyata keçirilir ki, bu da möhkəm birləşməni və davamlılığı təmin edir. İstehsal olunan poliuretan çəkmələr suya, yağa və müxtəlif kimyəvi maddələrə davamlıdır. Çəkmələrin elastik və düzgün anatomik forması, yüngül çəkisi və aşınmaya davamlılığı qoruyucu xüsusiyyətlərlə yanaşı, yüksək komfortludur. Müəssisədə istehsal prosesi və keyfiyyətə nəzarət bu sahədə böyük təcrübəyə malik yüksəkixtisaslı yerli və xarici mütəxəssislər tərəfindən idarə olunur. Almaniyanın ən son nəsil avadanlıqları ilə təchiz edilmiş fabrikin illik istehsal gücü 510 min cüt ayaqqabıdan ibarətdir. Beynəlxalq standartlara cavab verən xammallar tanınmış xarici şirkətlərdən sifariş edilir. Ayaqqabı altlıqlarında istifadə olunan poliuretan Almaniyadan gətirilir. PU (poliuretan) və TPU (termoplastik poliuretan) davamlılığı, aşınma müqavimətini və yüksək köhnəlməni təmin edən materiallardır. Ayaqqabı modellərinin dizaynı və pres qəlibləri dünyaca məşhur brendlərlə işləyən İtaliya şirkəti tərəfindən xüsusi hazırlanıb.

"Made in Azerbaijan" adı ilə istehsal olunan ayaqqabıların daxili bazarda satışı ilə yanaşı, xaricə də ixracı nəzərdə tutulur.

Xüsusi geyimli işçilərlə iş prosesində tanış oluruq, onların böyük əksəriyyəti qadınlardır.

**Aynur Xoştarın** valideynləri Ağdam şəhərində yaşayıblar. Ancaq özü ata-babasının doğma yurdunu ilk dəfə bu yaxınlarda, zavodda işləməyə başlayanda görüb. Deyir ki, dağıntılardan sarsılsam da, aparılan tikintilər, Ağdam Cümə məscidinin ikinci dəfə həyata qaytarılması, çox gözəl dizaynlı binalar mənə təsəlli oldu, bir sözlə, baba yurdum Ağdamı sevdim. Burada işlədiyim üçün çox qürurluyam, kim deyə bilərdi ki, Aynur ilk əmək fəaliyyətinə Ağdamda başlayacaq. Möcüzədir, həm də həqiqətdir.

**Züleyxa Mustafayeva** isə Aynurdan fərqli olaraq erməni vəhşiliyini, o qanlı-qadalı illəri az da olsa xatırlayır. Çünki doğma kəndləri Xıdırlıdan məcburi köçkün düşəndə 5 yaşı var imiş: "Top, raket səsləri yadımdadır, ermənilər kəndimizi atəşə tuturdular. Biz də qaçıb iri dəmir boruların içində gizlənirdik. Xilas olmaq üçün qorxa-qorxa içinə sığındığımız o boruları heç zaman unuda bilmirəm. İşğaldan azad edildikdən sonra bura ilk gəlişimdə həmin xatirələrim yadıma düşdü, kövrəldim. Ağlamağım həm də sevincdən idi, Ağdamımız azad olub. Ailəmiz məcburi köçkünlər üçün salınmış Bənövşəli qəsəbəsində müvəqqəti məskunlaşıb. İşdən evə qayıdan kimi bütün ailə üzvlərim, qonşular məni sorğu-suala tuturlar: Ağdam necə tikilir, orada ağaclar varmı, yollar çəkilibmi, evimizin yerini tapa bildinmi? Bütün suallara da həvəslə cavab verirəm, sözlərimdəm çox təsəlli tapırlar, Ağdama qayıtmaq üçün səbirsizlənirlər. Allah Müzəffər Ali Baş Komandanımızı qorusun! Onun rəhbərliyi ilə biz bu xoşbəxt günləri yaşayırıq. Allah nur üzlü şəhidlərimizə rəhmət eləsin, qazilərimiz sağ olsun!".



(davamı növbəti saylarımızda)

**Salman ALIOĞLU,**
**"Respublika".**

*Bakı-Ağdam-Bakı.*

** Məqalənin birinci hissəsi qəzetimizin 21 sentyabr tarixli sayında dərc edilib.*
















